# KİTABXANA FONDUNUN FORMALAŞMASI VƏ KOMPLEKTLƏŞDİRİLMƏSİ

**Mominət Muradova**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı*
*mominatmuradova@gmail.com*

***Xülasə:*** *Məqalədə kitabxananın struktur elementlərindən biri olan kitabxana fondu tədqiqata cəlb edilmişdir. Burada kitabxana fondunun formalaşdırılması məsələlərinə toxunulmuş, formalaşdırma prosesinin səciyyəvi cəhətləri, formalaşdırma xüsusiyyətləri və prinsiplərinə geniş yer verilmişdir. Habelə kitabxana fondunun komplektləşdirilməsi məsələləri qeyd edilmiş, komplektləşdirmə mərhələləri ayrı-ayrılıqda şərh olunmuşdur. Kitabxana fondunun formalaşdırılması və komplektləşdirilməsinin qarşılıqlı əlaqədə inkişafı parametrləri araşdırılmış və müxtəlif yanaşmalar irəli sürülmüşdür.*
***Açar sözlər:*** *Kitabxana, fond, kitabxana fondu, kitabxana fondunun formalaşdırılması, kompektləşdirmə.*

**Giriş.** Kitabxanasünaslığın, eləcə də fondşünaslığın əsas tədqiqat obyektlərindən biri kimi kitabxana fondunun formalaşması və komplektləşdirilməsi məsələləri əsas yer tutur. Kitabxananın formalaşması və inkişafını şərtləndirən əsas məsələ kitabxana fondunun hərtərəfli, məqsədyönlü yaradılmasıdır. Kitabxana fondunun yaradılması, fondun müntəzəm olaraq inkişaf etməsi və fonddan səmərəli istifadə edilməsi kimi məsələlər kitabxana fondunun formalaşmasının əsas istiqamətləri hesab olunur. Belə ki, kitabxana fondunun formalaşdırılması zamanı fondun özünəməxsus olan xarakterik xüsusiyyətləri meydana gəlir. İlk dəfə 1960-ci illərin axırlarında fondun formalaşması anlayışı Y.V.Qriqoriyev tərəfindən irəli sürülmüşdür. O ilk dəfə olaraq sənədlərin sistemləşdiriilməsi zamanı nəzərə alınan bütün texnoloji proseslərin xarakteristikasını vermiş və ümumiləşdirmiş, fondun formalaşması metodikası hazırlamışdır.

Onu da qeyd etmək lazımdır ki, kitabxana fondunun formalaşması təsadüfi xarakter daşımır, o müntəzəm olaraq davam edən prosesin nəticəsi kimi meydana gəlir. Belə ki, bu proses bir dəfə başlayır və kitabxana mövcud olan müddət ərzində davam edir. Yəni sənəd kütləsi yenilendikce, sənəd axını kitabxana fonduna daxil olduqca formalaşma prosesi də daha optimal sürətdə həyata keçirilir.

**Məsələnin qoyuluşu.** Biz fondun formalaşmasının mahiyyətinə diqqət yetirsək sənəd toplusunun məqsədyönlü, səmərəli, dolğun, hərtərəfli komplektləşdirimə optimallığının yaranmasına şahid olarıq. Əgər fondun formalaşdırılması düzgün şəkildə həyata keçirilməzsə fondun komplektləşdirilməsindən söhbət gedə bilməz.

Kitabxana fondunun formalaşdırılması kitabxananın qarşısına qoyduğu məqsəddən, vəzifədən, oxucu profilindən və xidmət prosesindən asılıdır. Buna səbəb hər bir kitabxana şəbəkəsinin ayrıca struktur quruluşa malik olmasından irəli gəlir. Biz elmi kitabxanalar ilə kütləvi kitabxanaların fondunu müqaisə etsək görərik ki, elmi kitabxanalarin fondunda kütləvi kitabxanalara nisbətən elmi ədəbiyyatın komplektləşdirilməsinə diqqət edilmişdir. Əgər bu nüans gözdən qaçmış olsa, kitabxana fondu pərakəndə olar və oxucu sorğuları tam şəkildə ödənə bilməz.

Belə mənfi halların yaranmaması üçün komplektləşdirmə prosesinə yüksək ixtisaslı, mütəxəssis kitabxanaçı kadrlar cəlb edilməlidir. Kitabxanaçı kadrlar komplektləşdirmə prosesinə xüsusi diqqət yetirməli, kitabxananın profilinə və oxucuların sorğularına uyğun ədəbiyyatı seçməlidir. Mütaliə prosesinin yüksəldilməsinə əsaslanan komplektləşdirmə prosesi mahiyət etibarilə ən mühüm sənəd repertuarının əldə edilməsinə əsaslanır. Toplanmış sənəd repertuarına təsir göstərən əsas amil kimi kitabxanada oxucu tərkibinin sayı əsas götürülür. Belə ki, oxucu tərkibi fondun uzun müddətli istifadə edilməsinə, sorğuların ödənilməsinə və fondun dövretmə keyfiyyətinə təsir göstərir. Bu da fondun istifadetmə səmərəliyini artırır Uzun bir proses kimi xarakterizə olunan fondun formalaşdırılması prosesi zəngin informasiya mənbəyinin yaranmasına gətirib çıxarır, fondların uzunmüddətli istifadə səmərəliliyini atırır. Kitabxana fondlarının formalaşması əhəmiyyəti ondadır ki, fondun demək olar ki, bütün səviyyəvi cəhətləri onun formalaşması nəticəsində yaranır. [4, s 17]

Fondun formalaşması prosesinin inkişaf tendensiyasına şərait yaradan bir sıra xarakterik xüsusiyyətlər mövcuddur. Belə ki, bütün kitabxana fondlarının formalaşması zamanı 2 əsas xüsusiyyət nəzərə alınır:

1. İnformasiya tələbatının tamlığı;
2. Oxucu marağının təmin edilməsi.

İlkin yanaşmaya nəzər yetirdiyimiz zaman aydın olur ki, fond mövcud informasiya tələbatına uyğun gələrsə deməli fondun formalaşması düzgün parametrlərə malikdir. Yəni burada mövcud informasiya tələbatının tamlığı əsas məqsəd kimi çıxış edir. Bu tələbatlar nəticəsində maraqlar meydana gəlir. Formalaşan yeni maraqlar müxtəlif xarakterik xüsusiyyətlərə görə təsnif edilir. Buraya oxucunun fərdi keyfiyyətləri, yaşı, cinsi, təhsili, peşəsi kimi xarakterik xüsusiyyətləri aid etmək olar. Marağın müəyyənləşməsinə əsalanan konseptual baxışlar qeyd olunan prizmadan özünü göstərir. Beləliklə, mövcud bu iki yanaşma qarşılıqlı inkişaf trayektoriyasına malikdir. Belə ki, fond komplektləşərkən kitabxananın vəzifələrinə və oxucu marağına uyğun olmalıdır. Mövcud informasiya tələbatı ilə oxucu sorğusunun qarşılıqlı əlaqəsi sənədlərin seçmə zənginliyini doğuran əsas əlamətlərdən biridir. Kitabxanada mövcud olan oxucu maraqları 3 formada özünü göstərə bilər:

1. Ümümi maraqlar;
2. Xüsusi maraqlar;
3. Ötəri maraqlar.



Ümumi maraq kitabxananın bütün oxucu kontingentini əhatə edir. Xüsusi maraqlar müvafiq sahə üzrə maraqlanan oxucuların maraqlarını özündə əks etdirir. Ötəri maraq isə informativ xarakter hesab olunub, təkrarolunmaz maraq kimi hesab edilir. Onu da qeyd etmək istərdim ki, biz bu maraqları mütləq maraq kimi hesab etməməliyik. Bu maraqlar nisbi xarakter daşıyır. Belə ki, bu maraqlar fondun formalaşması dövrünü, ölkə qarşısında duran perspektiv vəzifələri xidmət etdiyi sahələri dərindən dərk etməyi, oxucu kontingentini, onun tələbatını, bədii zövqünü, mütaliə məqsədini, sənədlərə müraciət etmə potensialını müntəzəm öyrənməyi tələb edir.

Bütün bunlardan aydın olur ki, kitabxana fondunun formalaşması komplektləşdirmə parametrlərini, onun ölçülərini, təşkili xüsusiyyətlərini, sənədlərin kəmiyyət optimallığını özündə etiva edir. Formalaşma zamanı fondun profil tamlığı, komplektləşdirmə xüsusiyyətləri, sənəd axını və onların mühafizə olunma şəraiti nəzərə alınmalıdır. Bununla yanaşı fondun formalaşmasında bir sıra prinsiplər özünü göstərir. Bu prinsiplər bütünlükdə vahid fondun yaranmasına gətirib çıxarır. Fondun aşağıdakı formalaşma prinsipləri mövcuddur.

1. Elmilik prinsipi;
2. Seçmə prinsipi;
3. Tamlıq prinsipi;
4. Uyğunluq prinsipi;
5. Profillilik-əlaqələndirmə prinsipi;
6. Müntəzəmlik-planlılıq prinsipi [5, s 60].

Elmilik prinsipi dedikdə kitabxana fondunun elmi əsaslar üzrə formalaşması nəzərdə tutulur. Belə ki, fondun formalaşmasına elmi nöqteyi nəzərdən yanaşmaq fondun təkminləşdirilməsinə şərait yaradır. Ona görə də, kitabxanaçılar sənədlərin elmi mahiyyətini dərk etməli və sənədlərin məqsədyönlü komplektləşdirilməsini təmin etməlidir. Misal kimi biz ali təhsil müəssisələrinin kitabxana fondunun formalaşdırarkən bu prinsipin daha geniş təzahür formasına şahid olduğumuzu göstərə bilərik . Seçmə prinsipi sənəd axınına istinad edir Seçmə prinsipi ilkin və təkrar seçmə olmaqla 2 formada həyata keçirilir. Hər 2 mərhələdə ədəbiyyatın müəyyən parametrik əlamətlərə görə seçilməsi nəzərə alınır yəni, ilkin seçmədə cari ədəbiyyat , təkrar seçmədə isə retrospektiv ədəbiyyatın təhlili həyata keçirilir. Belə ki, bu prinsip kitabxana fondunun profilinə, həcminə, ədəbiyyatın tərkibinə, oxucu marağına uyğun olaraq tətbiq edilir və fondun məzmunca təkminləşdirilməsinə şərait yaradır. Uyğunluq prinsipi fondun oxucu sorğusuna görə təkminləşməsinə əsaslanır və fondun yenilənməsinə imkan yaradır. Tamlıq prinsipi konkret kitabxanaya, oxucuya zəruri olan sənədlərin əldə edilməsinə əsaslanır . Mövzu və tipoloji tamlıq olmaqla 2 formada həyata keçirilir. Mövzu tamlığı mövzu, sahəvi, xüsusi və universal xarakterli bütün sənədlərin fonda daxilinə şərait yaradır, tipoloji tamlıq isə müxtəlif növlü, sahəvi sənədlərin komplektləşməsinə əsaslanır. Profillilik və əlaqələndirmə prinsipi oxucu kontingentinə və profilinə uyğun ola-

raq fondun mövzu və müxtəlif əlamətlərə görə ixtisaslaşdırılmasına əsaslanır. Belə ki, əlaqələndirmə prinsipi nəticəsində müxtəlif kitabxana fondları bir-birilə qarşılıqlı əlaqələnə bilir. Müntəzəmlilik ve planlılıq prinsipi konkret planlaşdırma əsasında alınan və fonddan çıxarılan sənədlərin tənzimlənməsinə əsaslanır. Burada ədəbiyyatın sistemli təhlili və fondun davamlı inkişafı müntəzəm olaraq planlı formada həata keçirilir. Bu prinsiplər bir-birilə kombinasiya olunmuş formada fondun formalaşdırılmasına şərait yaradır.

Fondun formalaşdırılmasının idarəetmə prosesləri: Modelləşdirmə, Komplektləşdirmə, Uçot, Kitabişləmə, Köhnəlmiş ədəbiyyatın fonddan çıxarılması adlı 5 mərhələdən ibarətdir. [2,s 17] Bu proseslərdən biri də komplektləşdirmədir. Kitabxanaların sənəd-informasiya sistemlərilə təmin edilməsində komplektləşdirmə mühüm əhəmiyyətə malikdir. Komplektləşdirmə kitabxana fondunun müxtəlif növ sənəd-informasiya resursları ilə məqsədəuyğun və planlı şəkildə tamamlanmasıdır. Bu proses mürəkkəb proses olmaqla fond üçün zəruri nəşrlərin seçilməsi və fondun tənzimlənməsinə əsaslanır. İlkin şərt kimi komplektləşdirmə zamanı tematik-tipoloji plan tərib edilməlidir, bu plan komplektləşdirmənin əsasını təşkil edir. Komplektləşdirmə zamanı kitabxana fondunun profili yəni, fondun modeli təyin edilir. Daha sonra kitaxanaçı kitabların rpertuarı ilə tanış olur, fondda yerləşəcək olan ədəbiyyatlr qeyd edilir və kitabxanaçı artıq qeyd olunmuş nəşrləri əldə edir. Sistemli yanaşma əsasında təşkil olunmuş komplektləşdirmə prosesi düzgün fondun formalaş-masının təməlidir. Planlaşdırma, millilik, seçmə və profillik – əlaqələndirmə prinsiplərini rəhbər tutaraq təşkil olunmuş komplektləşdirmə prosesi ümümi sənəd resurslarının qiymətləndirilməsi effektivliyinə və optimallığına əsaslanır. Kitabxanaların düzgün formada komplektləşdirilməsi fondun gələcək inkişafına şərait yaradır.

**Nəticə.** Fikrimi ümumiləşdirərək demək istəyirəm ki, kitabxana-informasiya fəaliyyətində fondun yeri və rolu danılmazdır. Fond kitabxananın təməl mənbəyidir, fond olmazsa kitabxananın mövcudluğundan söhbət gedə bilməz. Fondun yaranması və inkişafını şərtləndirən amil kimi kitabxana fondunun formalaşması və komplektləşdirilməsi məsələlərini qeyd etmək lazımdır. Fondun formalaşdırılması prosesi dinamik proses olub, günümüzdə də öz aktuallığını saxlayır. Sistemli yanaşma prinsipindən çıxış edərək təşkil olunan bu proses mütəxəssis kitabxanaçıların sayəsində təşkil olunur və kitabxana fəaliyyətinin təşkilini şərtləndirir. Komplektləşdirmə prosesi də kitabxanaların müvafiq şöbəsi tərəfindən oxucu marağı və tələbatı əsasında, kitabxananın profilinə uyğun həyata keçirilir. Komplektləşdirmə prosesinin dinamik inkişafı bir sıra mənbələr əsasında tənmzimlənir. Hansı ki, fonda həmin mənbələrdən mütəmadi olaraq ədəbiyyatın daxil olması kitabxananın statusunun yüksəlməsilə, fondda ədəbiyyatın zənginlənməsi ilə nəticələnir.



**İstifadə olunmuş ədbiyyatın siyahısı:**


1. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu [Mətn]: [29 dekabr 1998-ci il, № 611-IQ].
2. İsmayılov, X.İ. Kitabxana fondlarının formalaşdırılmasının nəzəri və praktiki metodları [Mətn] /X.İsmayılov//Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal. – 2017. – № 1 (40). – S. 13-19.
3. Xələfov, A.A Kitabxana fondu təşkilinin bəzi məsələləri [Mətn] /A.A.Xələfov; red. Z.H.Əliyev. – Bakı: ADU, 1958
4. Xələfova, S.A. Kitabxana Fondunun formalaşması ideyası, anlayışı və inkişafı [Mətn] /S.Xələfova//Kitabxanaşünaslıq və biblioqrafiya. – 2010. – № 1, – S. 14-21.
5. Həsənov, M.M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi [Mətn]: dərs vəsaiti /M.M.Həsənov; red. T.F.Quliyev; Bakı: Bakı Universiteti nəşriyyatı, – 2004. – 143 s.: 20 sm.


**М.Мурадова**

**Формирование и комплектование библиотечного фонда**

***Резюме:*** *В статье к исследованию был привлечен библиотечный фонд, который является одним из структурных элементов библиотеки. Здесь были затронуты вопросы формирования библиотечного фонда, уделено достаточно места специфическим аспектам процесса формирования, особенностям и принципам формирования. Кроме того, были затронуты вопросы комплектования библиотечного фонда, и отдельно разъяснены этапы комплектования. Исследованы параметры взаимодействия, развития, формирования и пополнения библиотечного фонда и предложены различные подходы.*

***Ключевые слова:*** *библиотека, фонд, библиотечный фонд, формирование библиотечного фонда, уплотнение*

**M.Muradova**

**Formation and complectation of the library fund**

***Abstract:*** *In the article, the library fund, which is one of the structural elements of the library, was involved in the research. Here, the issues of the formation of the library fund were touched upon, the specific aspects of the formation process, the features and principles of formation were given ample space. In addition, the issues of assembling the library fund were mentioned, and the stages of assembling were explained separately. The parameters of the interaction development of the formation and completion of the library fund were investigated and different approaches were put forward.*

***Keywords:*** *Library, fund, library fund, formation of library fund, complectaion*

***Rəyçi:*** *müəllim U.Manafova*